Azərbaycan Demokrat Firqəsi, ADF

فرقه دموکرات آذربایجان

www.Azerbaycan-Ruznamesi.org




**21 Sentyabr 2022-ci il (30 Şəhrivər 1401-ci il)**

## Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinin bəyanatı

**Əziz həmvətənlər!** Bildiyiniz kimi İran adlanan ölkədə 20 sentyabr 2022-ci (29 şəhrivər 1401-ci il) ilin günündən başlayaraq, geniş etirazlar müxtəlif şəhərlərdə başlanıb. Etirazların başlama bəhanəsi Saqqız şəhərində 22 yaşlı Məhsa Əmininin əxlaq polisi tərəfindən döyülüb,

öldürülməsi və eyni zamanda onun torpağa tapşırma mərasimində iştirakçılarına qarşı, polisin atəş açması olmuşdur. Azərbaycan Demokrat Firqəsi dəfələrlə xəbərdarlıq etmişdir ki, İranda gedən hökumət zorakılığı və kütlələrin, müxtəlif xalqların probleminin yığışıb qalması, bir sözlə, insanların boğaza yığılması partlayışa gətirib çıxardacaq. Nəhayət bu partlayış 20 sentyabrda baş verdi. Bütün şəhərlərdə polislə vətəndaşlar arasında toqquşma başlayıb, hələ də davam edir. Əhali tərəfindən çoxlu insanların yaralanması, hətta bir neçə nəfərin ölmə xəbəri, sosial şəbəkələrdə yayılmışdır.

İranın səksəndən çox böyük şəhərlərində etirazların genişlənməsi, dünya mediyasında öz əksini tapmışdır. Vətənimiz Güney Azərbaycanın Təbriz, Urumiyə, Ərdəbil, Zəncan, Qəzvin, Həmədan, Mərənd, Miyana, Sərtəşt, Xoy və Səlmasdan... aldığımız xəbərlərə əsasən soydaşlarımız xiyabanlara tökülüb, bir səslə **“azadlıq, ədalət, milli hökumət”** şüarını yüksək səslə səsləndirirlər. Xalqımız, Azərbaycan Milli Hökumətini yenidən bərpasını tələb edərək, öz tarixi mübarizə ənənələrinə söykənərək, yarımçıq qalmış tarixi vəzifəni yerinə yetirmək üçün öz iradəsini ortaya qoyur. Qəhrəman xalqımız insan haqları çərçivəsində, beynəlxalq hüquqa müvafiq olaraq, qadın hüquqlarına xüsusi əhəmiyyət verir. Böyük həvəslə **“qadın, kişi əl-ələ zülmün başın əzməyə”** şüarını dəfələrlə müxtəlif şəhərlərdə səsləndirirlər. Azərbaycan ərənləri, igid qız- gəlinləri hicabdan azad olsun şüarını dünyaya hayqırırlar. Xalqımız **“Azərbaycan var olsun, istəməyən kor olsun”** şüarını keçmişdəki kimi həmişə Azərbaycanı istəməyənlərə qarşı meydanda uca səslə səsləndirirlər.

**Əziz həmvətənlər!** Azərbaycan Demokrat Firqəsi 1357-ci ilin Bəhmən inqilabında, şah diktatorluğuna qarşı müdafiə etdi. Yeni gələn hakimiyyətə və konstitusiyaya müsbət səs verdi. Azərbaycan Demokrat Firqəsi açıq fəaliyyətinin dövründə, dəfələrlə hakimiyyətin verilən vədələrə əməl edilməsini, konstitusiyanın həyata keçirilməsini və inqilabın hədəfləri istiqamətində cəmiyyətin idarə olunmasını tələb etdi. Eyni zamanda Azərbaycanlıların milli, mədəni, ictimai və iqtisadi həyatında böyük nöqsanlar ki, şah rejimindən irsən yetişmişdi, aradan qaldırılması barədə öz proqramlarını irəli sürmüş və hakimiyyətdən onların həlli barədə

şərait yaratmağını istəmişdi. Təəssüflər olsun ki, İran rejimi heç bir qanuna, qaydaya və verdiyi vədəyə bü günədək əməl etmədi. Onun cavabı firqəçilərə ancaq güllə, həbs və zindan oldu. Beləki bütün kütlələri, o cümlədən Azərbaycan xalqını inqilabdan və hakimiyyətdən məyus etdi. Bu gün Azərbaycanda Urmu gölünün quruması, Azərbaycan xalqını ekosistem faciəsi ilə qarşı-qarşıya qoymuşdu. Milli eitimdən xəbər-ətər yox. Korrupsiya və inflyasiya baş alıb gedir. İşsizlik, evsizlik, ərzaq qıtlığı Azərbaycan bütün şəhərlərində və digər məntəqələrdə tüğyan edir. Baş verən təbii fəlakətlər qarşısında İran rejimi acizdir. Ancaq rejim məsulları yeraltı-yerüstü sərvətləri, Azərbaycanın qızılını, misini, bahalı dəmirlərini, meşə ağaclarını qarət etməkdən başqa bir işi yoxdur. Üstə gəl müxtəlif bəhanələrlə küçədə, bazarda, xalqın evlərinin içində hicab bəhanəsi ilə hücum edib, onları döyür, söyür, həbs edib cərimə eləyir. Milli fəallara və Azərbaycan Demokrat Firqəsinin üzvlərinə, hansı ki, türk dilində mədrəsə, olmalıdı hər kəsə tələbini irəli sürənlərə uzun müddətli həbs cəzası nəsib olur. Təbii ki, bu kimi açıq zorakılıqlar xalqı bezdirib. İran rejimi Azərbaycan türklərinə, ərəblərə, bəluçlara, kürdlərə və türkmənlərə qarşı tam irqiçilik, nasisti və faşisti siyasəti tətbiq edir. Məmləkətin bütün sərvətlərini fars zonalarında sərmayə qoyub, abadlaşdırır. Qeyri fars millətlər, yoxsulluq və işsizlik səbəbindən kütləvi mühacirətlərə, bir tikə çörək üçün üz tutub, yurd-yuvalarını tərk edirlər. Təbii ki, bu kimi zülm altında yaşamaq davam edə bilməz. Elə ona görə bir məzlum qızın ölümü səksən milyyon əhalinin küçələrə tökülməsinə səbəb olmuşdur. Cana doymuş Azərbaycan cavanlarının şüarları **“Biz ölməyə hazırıq, “Babəkin sərbazıyıq”** deyə Azərbaycan üçün sinələrini güllə qabağına verirlər.

**Əziz Həmvətənlər!** Azərbaycan Demokrat Firqəsi minlərlə şəhid verməklə,
millətimizin hüquqlarını həmişə müdafiə etmişdir. Xalqımızla bərabər ön sıralarda mübarizə edir. Bu gün hamımız birlikdə **“azadlıq, ədalət, milli hökumət”** şüarı ilə, zəngin tarixə malik olan vətənimizin idarəsini əldə edə bilərik. Bütün böhranları həll edib, millətimizi rifaha, şən firəvan həyat yaşamağa, mədəniyyətimizi çiçəkləndirməyə qadirik. Biz birlikdə milli, mədəni mübarizəmizi, Azərbaycanın milli məclisini və milli hökumətini bərpa edənədək davam edəcəyik.

**Yaşasın Azərbaycan Demokrat Firqəsi**

**Yaşasın Azərbaycan milləti**

**Zəfər çalsın İranda zülm altında yaşayan millətlərin mübarizəsi**

**Milli azadlıq yolunda “azadlıq, ədalət, milli hökumət” şüarı ilə irəli**

**Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsi**